**UOT: 82-09**
https://doi.org/10.59849/2409-4838.2025.2.15

# QARABAĞ MÖVZUSUNUN REALİST HEKAYƏLƏRDƏ İNİKASI

**Hənifə Yusif qızı Səlifova**
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan
*henife.selifova87@mail.ru

*Təqdim olunan məqalədə Qarabağın tarixi, orada baş verən hadisələr, Azərbaycan xalqının tarixən məruz qaldığı faciələri işıqlandıran əsərlərin adları çəkilir, Sovet hakimiyyəti illərində Qarabağ konfliktinə laqeyd münasibətin tariximizə vurduğu mənəvi-ideoloji zərbə pislənir, Azərbaycan müstəqillik əldə etdikdən sonra Qarabağ mövzusunun, Azərbaycançılıq konsepsiyasının aparıcı istiqamətə çevrilməsinin əhəmiyyəti vurğulanır.*

*Eyni zamanda 2000-ci illər - nisbi sabitlik dövründə birinci Qarabağ müharibəsi mövzusunda yazılmış hekayələrin təhlilinə xüsusi yer verilir. Azər Abdullanın "Qımır", Əlabbasın "Halal qan", Salidə Şərifovanın "Əriyən şam", Nizami Əlioğlunun "Əl saxla", Bahar Bərdəlinin "Evlərinin dalı təpə", Vüsal Tağıbəylinin "Dağlarda qalan məzar", Aləmzər Sadiqqızının "Günahkar adam", Aqil Hacıyevin "Dəhliz", Qərib Mehdinin "Ah, torpaq...torpaq" hekayələri mövzu-məzmun baxımından şərh olunur. Qarabağ müharibəsinin acı izlərinin qəhrəmanların ruhi vəziyyətində inikası, gerçəkliyin dərin qatlarına nüfuz edərək baş verən olaylara dinamik münasibət hekayələrin əsas dramaturji xəttini müəyyən edir. Nəsr təfəkkürünün təhkiyənin stixiyasına qatdığı estetik rəngarənglik hekayələrin mətnində özünü göstərir.*

***Açar sözlər:*** *nəsr, realist hekayə, Qarabağ mövzusu, müharibə.*

## GİRİŞ

Bəşər tarixinin ilkin dövrlərində - millətlərin oyanışından başlamış bu günə qədər insanlıq tarixi minlərlə fəlakətlərin, müharibələrin şahidi olmuş, insan yaşamaq uğrunda, milli və bəşəri ideallar yolunda mübarizə aparmışdır. Azərbaycan ərazisi də tarixən bölünmək təhlükəsi, parçalanmaq qorxusu ilə üz-üzə olmuşdur. Azərbaycanın, ümumən Qarabağın əlverişli mühitdə yerləşməsi, zəngin yeraltı və yerüstü sərvətlərə malik olması region uğrunda mübarizənin səbəblərindən idi.

Cümhuriyyətlə təməli qoyulmuş müstəqil dövlətçiliyimiz otuz ildən artıqdır istiqlaliyyətini qoruyub saxlayır. Bu gün öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan siyasi müstəvidə öz suverenliyini davam etdirir, sosial-iqtisadi sahədə qazanılan uğurlarla inkişaf edir. Lakin uzun illər Qarabağın mənfur ermənilər tərəfindən işğalı ölkəmizin tarixində dərin iz buraxmış, mənəvi-ideoloji zərbə vurmuşdur.

Qarabağ uğrunda aparılan müharibələr, orada yaşayan əhalinin etnik tərkibi, məişəti, tarixi haqqında "Qarabağnamələr"dən başlamış Musa Kalankatlunun "Alban tarixi" və başqa mənbələrdə, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Nəriman Nərimanov, Yusif Vəzir Çəmənzəminli və digər ədiblərimizin bədii irsində fakt və detallarla tanış oluruq.

Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində erməni-müsəlman davasının tarixi araşdırılır, Qarabağda yerləşdirilmiş ermənilərin torpaq sevdası, rus imperialistlərinin köməyinə arxalanıb fitnə-fəsad, münaqişə törətməsinə aydınlıq gətirilir.

Yusif Vəzir Çəmənzəminlinin 1918-1920-ci illər erməni-müsəlman qırğınlarına həsr etdiyi "Azərbaycan muxtariyyəti", "Kiyevdən məktub", Cəlil Məmmədquluzadənin "Necə qan ağlamasın daş bu gün" felyetonunda, Mirzə Bala Məmmədzadənin "Ermənilər və biz", "Yeni Ermənistan və Azərbaycan" məqalələrində, Məmməd Səid Ordubadinin "Qanlı sənələr" bədii-sənədli əsərində, İl-

yas Əfəndiyevin əsərlərində Qarabağ mövzusu, xalqımızın məruz qaldığı faciələr, erməni məkri işıqlandırılmış, tariximizin həmin dövrlərinə güzgü tutulmuşdur.

XX əsrin əvvəllərində çap olunan "Molla Nəsrəddin", "Azərbaycan", "Hümmət" kimi qəzetlərdə də ermənilərin millətimizin başına gətirdiyi fəlakətlər haqqında çoxsaylı məqalələr dərc olunmuşdur.

Sovet hakimiyyəti illərində isə Qarabağ mövzusuna münasibət, faktların aşkara çıxarılması, Qarabağ münaqişəsinin milli mətbuatda, ədəbi mühitdə işıqlandırılması müəyyən qadağalarla üzləşmişdir.

1990-cı il 20 yanvar qətliamı, Dağlıq Qarabağ uğrunda aparılan müharibə, torpaqlarımızın iyirmi faizinin işğalı ədəbiyyatda Qarabağ mövzusunu aparıcı istiqamətə çevirdi. Vətənin istiqlaliyyəti, ərazi bütövlüyü uğrunda yazıçı və şairlərimiz arxa cəbhədə mübarizə aparır, əsgərləri döyüşə ruhlandırırdı. Xəlil Rza, Bəxtiyar Vahabzadə, Anar, Cabir Novruz, Nəbi Xəzri, Hüseyn Arif, Fikrət Qoca, Sabir Rüstəmxanlı, Məmməd Aslan, Məmməd İsmayıl, Ələmdar Quluzadə, Eldar Baxış və başqaları qanlı şənbə gecəsinin dəhşətlərini, xalqın mübarizə ruhunu bədii nümunələrlə əks etdirirdilər.

Son otuz ildə müstəqillik ədəbiyyatının əsas mövzusu bilavasitə və bilvasitə Qarabağla bağlı olmuşdur.

**ƏSAS HİSSƏ**

Müstəqillik dövrü ədəbiyyatını ədəbiyyat tarixində yeni bir mərhələ olduğunu nəzərə alsaq dövrün aparıcı mövzusu, heç şübhəsiz Qarabağ problemindən doğan Azərbaycançılıq konsepsiyasının təcəssümü idi. Yazılan hər bir əsər yarandığı dövrün ictimai-siyasi və sosial mənzərəsini canlandırır. Qarabağ müharibəsinin cəmiyyətdə yaratdığı maddi və mənəvi çöküş, yeni qurulmuş hökumətin çaşqınlığı, cəbhədəki gərginlik də bu mövzuda yaranan əsərlərdə əksini tapırdı. Müstəqilliyin ilkin dövrlərində mövcud olan böhran, xaos, ümidsizlik məqamları ədəbiyyatın da inkişafını ləngidirdi. 1997-ci ildə keçirilmiş Azərbaycan yazıçılarının X qurultayı ədəbi prosesin irəliyə doğru hərəkətini şərtləndirmişdi.

Birinci Qarabağ müharibəsindən sonra yazıb yaradan müəlliflərin əsərlərində müharibə və onun törətdiyi fəsadlar, şəhid, qaçqınlıq, cəbhə həyatı, əsirlik kimi problemlər qabardılmış və bədii ədəbiyyata yeni mövzu, yeni obraz və xarakterlər gətirərək bədii nəsrin zənginləşməsinə şərait yaratmışdır.

Azər Abdullanın "Qımır", Aləmzər Sadiq qızının "Günahkar adam", Xuramanın "Yadigar", Nizami Əlioğlunun "Əl saxla!", Aqil Hacıyevin "Dəhliz", Salidə Şərifovanın "Əriyən şam", Qalib Arifin "Bəxt və təsadüf", "Qəbiristanlıq", Bahar Bərdəlinin "Evlərinin dalı təpə", "Gözlərimdən qan axır", Vasif Tağıbəylinin "Dağlarda qalan məzar", Məmməd Orucun "Susuz gölün sonası", Fərruxə Pərişanın "İstefa", Əli Həsənlinin "Aşıq", Qərib Mehdinin "Ah, torpaq...torpaq", Qorxmaz Abdullanın "Segah", "Güllü xalça", Əli Eyvazın "Kəfən", "Hərənin öz dərdi", Kamil Əfsəroğlunun "Axşambazarı", Elçin Mehrəliyevin "Sınıq araba", "Gecikən yaz", Aydın Tağıyevin "100 ABŞ dolları" və b. hekayələrdə müharibənin törətdiyi fəsadlar, qaçqınlıq kimi motivlər bədii təxəyyül süzgəcindən keçirilərək yeni forma və məzmun kəsb etmişdir.

Yazıçı Azər Abdullanın Azərbaycan Milli Ordusunun yaranma gününə həsr etdiyi "Qımır" hekayəsində Qarabağ müharibəsi, erməni zorakılığı, xalqımızın yurd-yuvasından didərgin salınması kimi bizə tanış epizodların canlı şahidi oluruq. Hekayədə surətlərin azlığına baxmayaraq mövzudan doğan psixoloji məna öz dərinliyi və əhatəliliyi ilə seçilir.

Əsərin məzmunundan belə anlaşılır ki, Vasif atası Talıb kişinin təkidinə baxmayaraq düşmənlə üzbəüz mübarizə aparmaq niyyətindədir. Atası isə 14 yaşlı kiçik qızının taleyindən narahatdır. Düşmən əlinə keçib, namusunun ləkələnməməsi üçün doğma balasını öldürmək istəyir. "Talıb kişi taxta çarpayının üstündəki yastığın bağını dartıb qırdı, təlaş içində qoşalüləni çıxartmaq istədi, həyəcan və əsəbilikdən əlləri əsdi" [1, s. 119]. Talıb kişi dəfələrlə oğluna Zəngəzurda, Vedibasarda,

Göyçədə azğınlaşmış ermənilərin qadınlarla, qızlarla doğmalarının gözü qarşısında necə zorakılıqla rəftar etdiklərini xatırlatsa da, Vasif bacısının əlindən tutub "Dədə, arxayın ol, biz sağ-salamat gedib Bakıya çatacayıq" deyərək atasına etiraz edir. Müəllif on səkkizinci illərin əhvalatlarını xatırlatmaqla tarixin təkrarlanan çarxında düşmənin məkrli niyyətinin bütün vaxtlarda eyni olduğunu göstərməyə çalışmışdır.

Talıb kişi oğluna güvənir, lakin içindəki qarışıq duyğular onu rahat buraxmır və gedərkən oğluna "Ələ keçsəniz vurarsan. Başınnan..." deyərək iki dənə donuz gülləsini Vasifin pencəyinin cibinə qoyur. Bununla içindəki namus, qeyrət qorxusunu bir qədər sovuşmuş hesab edir. Hələ təzə yeniyetməlik yaşına çatan Vasif yaşadığı fəlakətlər qarşısında əyilmədən, qorxmadan mübarizə apararaq bacısının, atasının, nənəsinin xilaskarına çevrilir.

Xilaskar qardaş obrazına Əlabbasın "Halal qan" hekayəsində də şahid oluruq. Hekayə 1992-ci il Xocalı soyqırımının törədildiyi dövrə təsadüf edir. Filologiya elmləri doktoru Elçin Mehrəliyev "Halal qan" hekayəsini şərh edərkən yazıçı təhkiyəsinin inandırıcılığını xüsusi vurğulayır: "Əsərdə hadisənin təsviri süjet boyu mənəvi-əxlaqi keyfiyyətlərin təhlili ilə paralel aparılır. Əsərin məzmunundan belə məlum olur ki, Qarabağın dağ kəndlərindən birində yaşayan, lakin təcavüz nəticəsində doğma yurdundan qaçmağa məcbur olan yeniyetmə Seymur özündən yaşca kiçik bacısı Zümrüdlə başqa bir azərbaycanlı kəndi axtararkən dağlarda, meşələrdə azırlar. Yazıçı təhkiyəsinə elə bu "yol azma" məqamından - qarlı-şaxtalı bir havada günlərlə ac-susuz qalmağa məhkum edilmiş iki yeniyetmənin çəkdiyi məşəqqətləri inandırıcı boyalarla təsvirdən başlayır" [2, s. 250-251].

Situasiya və obraz müxtəlifliyinə baxmayaraq hər iki müəllifin ortaya qoyduğu tipik xarakter müharibə reallığının təcəssümü, ənənəvi sakral adətlərə (namus-qeyrət məsələləri) sadiqlik baxımından müqayisə oluna bilən bədii nümunələrdir. Hər iki hekayədə yeniyetməlik çılğınlığı ilə müharibənin başlanmasına ürəyində sevinən qardaş, qızının namusundan narahat olan ata obrazı oxşar kolorit daşıyıcılarıdır. "Yol" motivi hər iki hekayədə başlanğıc və son arasındakı gedişatın mənəvi-psixoloji gərginlik nöqtəsidir. Sonun nikbin tamamlanması müharibənin, torpaqlarımız uğrunda haqlı mübarizənin qalibiyyətlə başa çatacağına bir işarədir.

Salidə Şərifovanın "Əriyən şam" hekayəsində qaçqınların məskunlaşdığı çadır şəhərciyindəki acınacaqlı vəziyyətlə tanış oluruq. Acı reallığı sosial problem səviyyəsində ədəbiyyata gətirən müəllif balaca Mübarizin faciəli sonluğunu realist nəsrin imkanları daxilində həll edir. Vaxtilə Məktəb direktoru işləmiş Yunis kişi doğma yurdundan didərgin düşmüş, nəvəsi Mübarizlə çadır şəhərciyində məskunlaşmışdı. İmkansızlıqdan nəvəsinin dərdinə çarə tapa bilməyən Yunis kişinin keçirdiyi daxili sarsıntı hekayədə real cizgilərlə canlandırılır:

Nərgiz nənə gəlib müayinə etdi və sakitcə başını buladı. Sonra:

- Yunis müəllim, mən sizə demişdim, uşağı Bakıya aparın.
- Nərgiz bacı, nəynən aparım, hara aparım, kimin yanına aparım? Buralardan necə gedim? Buradan getmək asandırmı? Dilənməyi də bacarmıram ki, dilənçilik edəm. Həm də diləndiyim pula nəvəmi xilas etmək mümkün olarmı? Cavab ver. Niyə susursan? [3, s. 13-14].

Müharibənin gətirdiyi böhran bütün cəmiyyəti çıxılmaz vəziyyətdə qoymuşdu, yurd itkisinin ağrısı bir yana qaçqınlıq həyatının məşəqqətləri – aclıq, xəstəlik, işsizlik çadır şəhərciyinin sakinlərində ümidsizlik yaratmışdı. Bütün bu acı gerçəkliklər faciəli sonun qaçılmaz olduğunu müjdələyir. Və budur balaca Mübariz babasının gözləri qarşısında şam kimi "əriyir".

Hekayə öz strukturu, süjet qatı, təhkiyəsi və müharibə probleminin realist planda işlənməsi baxımından seçilən nümunələrdəndir. Yazıçı Çingiz Abdullayev "Əriyən şam" kitabına yazdığı ön sözdə hekayəni "ciddi realizm" cərəyanının tələblərinə cavab verən "kiçik roman" janrı kimi xarakterizə edir.

Nizami Əlioğlu "Əl saxla" hekayəsində müharibə obrazının bədii təsvirdə yaratdığı rəngarəngliyi ananın timsalında ümumiləşdirir. Hekayədə ana mətanət, səbr, dözüm, humanistlik heykəli kimi yadda qalır. Müharibə onun bütün doğmalarını əlindən alır, təsadüf nəticəsində sağ qalan ana (düşmən gülləsi onu oğlunun və ərinin meyitinin ortasına tullayır, ara sakitləşəndən sonra xilas edir-

lər) yenə öz müdrikliyini göstərərək kəşfiyyatçıların gətirdiyi erməni əsirinin öldürülməsinə razı olmur. H.Cavidin “Ana” pyesində olduğu kimi bu hekayədəki ana da öz mərdliyini göstərərək düşməninə rəhm edir və on səkkiz yaşlı erməni əsirini öldürməməsi üçün mayora yalvarır: “ - O məni anasına oxşatdı, naçannik...- dedi. – yalvarıram sizə, onu öldürməyin...onu mənə bağışlayın, naçannik, mənə!...Düşmən də olsa, məni anasına oxşatdı axı, naçannik...” [4, s. 159].

Müəllif bu yalvarışlarda ana əzəmətinin, ülviliyinin, böyüklüyünün, ilahiliyinin əsas məqamlarını qabardaraq oxucunu mənəvi cəhətdən bu dərinliyi anlamağa, dərk etməyə çağırır. Ananın “Hanı mənə ana deyən, on altı yaşlı balam hanı, hanı?!.. Bəs mənim oğluma qıyan, onu qızıl qanına boyayan insafsızın anası yox idimi?!.” [4] deyə hayqıraraq müharibələrə üsyan etməsini müəllif təsirli bədii ifadələrlə canlandırır.

Hekayədə zaman, məkan motivi olmasa da, hadisələrin gedişatı və əsərin məzmunu bəlli edir ki, əhvalat müharibənin içindən, neçə-neçə igid oğulların canını fəda etdiyi, anaları oğulsuz, ailələri başsız qoyan birinci Qarabağ müharibəsinin acı gercəklərindən bəhs edir.

Yazıçı Bahar Bərdəli də hekayələrində müharibə və qaçqınlıq mövzularına çox müraciət etmişdir. “Evlərinin dalı təpə” hekayəsi müharibə ovqatını özündə yaşadan bir əsərdir. Müəllif əsas qəhrəmanını düşmənlə üz-üzə dayandığı məqamda uşaqlıq illəri, doğma el-obası, hətta sevdiyi qızın xəyalı ilə baş-başa qoyur: “Kaş bir quş olaydı, lap nağıllardakı kimi. Vətən boyunca uçaydı, uçaydı...Yox, heç olmasa, bu üçtəpənin arxasına kimi... Qonşu qızı Firəngizi görəydi. Yenə də saçlarından tutub çəkəydi. O da acıqlanmaq əvəzinə güləydi, “Ay dəli, -- deyəydi, -- bu, səninçün nənənin çantası deyil ey, saçımdı, başım ağrıyır axı...” [5, s. 85], təpədən boylananda doğma kəndlərində “erməni dığaları”nın səsini eşidən Cavanşir buna dözmür, heç olmasa ruhunda mənəvi yüngüllük tapmaq, düşməndən az da olsa intiqam almaq üçün cibindəki qumbaranı çıxarıb onların üstünə atıb qaçır, lakin qəhrəmanın iç səsi, daxili dünyası onu rahat buraxmır, düşmən qabağından qaçmağı özünə sığışdırmır, “Bir qumbara nə qədər adam öldürə bilərdi ki? Nahaq qaçdı. Gərək özünə mövqe seçib onları bircə-bircə dənləyəydi. Bəs atəşkəs? olsun də! Elə buna görə qaçmadımı? Aman Allah, onun kəndi səngər olub, ermənilər bu səngərin o üzündə canavar kimi didişir, o isə kənarda dayanıb sakitcə baxır! Baxır ha! Yaman da baxdın. Bəs qumbara atan kim idi? Yəqin ki, beş-altısı o dünyalıq olub? Qalanı da...Ay belə əcəb elədi! İndi də gedib o qalanının anasını ağlar qoyacaq!” [5] geri qayıdıb yenidən düşmənlə üzbəüz dayanır, tüfəngi sinəsinə qaldırıb bir, iki, üç... deyə düşmən əsgərlərini biçməyə başlayır. Beş-altı Daşaltı, yeddi-səkkiz Firəngiz deyəndə amansız düşmən gülləsinə tuş gəlir, ölümcül yaralanır, xəyalında Firəngizin oxuduğu mahnıları dinləyərək gözlərini yumur:

Sən haralısan, haralı, durnam...
Yaralı...yaralı...yaralı...durnam... [5]

Müəllif ağı şəklində verdiyi bu mahnıda nə qədər mətnaltı məna gizlədib, yaralı əsgərlərimizin, şəhidlərimizin, yaralı Vətənin taleyini görürük bu sətirlərdə. Metaforadan düzgün istifadə hekayənin bədii dəyərini nümayiş etdirir.

Müəllif yaratdığı obrazı alban hökmdarı Cavanşirin prototipi kimi götürür və onu ali bir qəhrəman səviyyəsinə yüksəldə bilir. Təsadüfi deyil ki, hekayənin əvvəlində alban hökmdarı Cavanşirdən belə bir sitat da var “Mən öləndə məni sərhəddə dəfn edin, qoy övladlarım sərhədlərimizi qəbrim kimi qorusunlar.” Azərbaycan oğullarının igidliyi, qəhrəmanlığı həmişə dillərdə dastan olmuşdur. Müəllif hekayədə qəhrəmanlıq, vətənpərvərlik və cəsurluq təlqin etməklə gənc nəsli daim Vətən, torpaq yolunda mübarizəyə hazır olmağa səsləyir.

Vüsal Tağıbəylinin “Dağlarda qalan məzar” adlı müharibə hekayəsi Laçının, Şuşanın (fatehlərin belə zəbt edə bilmədiyi möhtəşəm qalanın) ermənilər tərəfindən alınmasından, əhalinin məcburi şəkildə köçürülməsindən, Kamal və oğlu Elçinin erməni quldurları tərəfindən öldürülməsindən bəhs edir.

Hekayənin əvvəlində Köhnəkənd kəndinin əzəmətli mənzərəsini görürük "Köhnəkənd göbələk üstü kimi hamar, yastı yaylada yerləşirdi. Dizə çıxan zərif otlar, günəşə sarı boylanan əlvan çiçəklər dağları butalı xalça kimi bəzəmişdi. Sarı güllü kəklikotunun tünd ətri adamı bihuş edirdi. Ad-da-budda şaxəli budaqlarıyla çətir kimi ətrafı sararaq laləli çəmənləri qara kölgəyə bürüyən qoz və yemişan ağacları geniş talalara xüsusi yaraşıq verirdi" [6, s. 142]. Əks qütbdə isə Kamalın "qara donlu kafirlər"lə mübarizəsinin şahidi oluruq "Azğınlaşmış ermənilər Qaladərəsi kəndində at oynadırdılar. Qanun-qaydaya məhəl qoymurdular. Odur ki, Kamal ürək qızdırdığı kənd cavanlarını başına yığıb ov tüfəngi ilə silahlandırdı. Nankor ermənilərə qulaqburması vermək məqsədilə on beş-iyirmi nəfərlik atlı götürüb Qaladərəsinin ətrafına gəldi. Yüksəkliklərdə mövqe seçib evləri nişan aldılar" [6]. Təbiətin bu bir-birinə zidd görüntüsü, acı təzadı həyatın reallıqlarını, yaşam uğrunda mübarizənin fəlsəfəsi kimi insanı düşünməyə vadar edir. Nədir "insan"ı buna sürükləyən! Müharibələrin, fəlakətlərin səbəbi nədir, səbəbkarı kimdir? Nə üçün təbiətin qayda-qanunları pozulur? Təəssüf ki, bu suallar əsrlərdir cavabsız qalıb.

Nurani bir ağsaqqal Alcan kəndinin müdafiəsiz qalmasından narahatdır. Bunun üçün mal-qaranın gündüzlər Alcanın otlaqlarına aparılmasını təklif edir. Kamal bu məsuliyyəti öz üzərinə götürür və iki oğlu - Elçin və Laçınla Alcan kəndinə yollanır. Qəfildən kəndə gəlib çıxan erməni yaraqlıları onlara hücum edir. Qonşu kənddən kömək gələnə qədər qansız düşmən Kamal və oğlu Elçini vəhşicəsinə öldürür, Laçın isə təsadüf nəticəsində sağ qalır. Kamal sanki elə ölmək, şəhid olmaq üçün doğulmuşdu, müəllif onu bu zirvəyə ucalmağa əvvəlcədən hazırlamışdı. Ailəsini və övladlarını (Özündən sonra doqquz övladı qalır) düşünmədən özünü od-alovun içinə atır, Vətən sevgisi ona hər şeyi unutdurur.

İnsanlığın müharibə adlandırdığımız faciəsinə təbiət də üsyan edir. Əsərin əvvəlində verilən mənzərəli təbiət təsviri artıq yoxdur. Onu ah-nalə, göz yaşı əvəz etmişdir: "Yaşıl otlar arasından boylanan zərif, lətafətli çiçəklər ah-zar edirdilər. Al-qırmızı lalələr başlarını yerə dikib sanki köçdən gələnlərin üzlərinə baxmağa cürət etmirdilər. Başqa vaxtı çiçəklərdən şövq alan quşların şirin cəh-cəhi də indi ürək ağrıdan ağıya dönmüşdü." [6] Daim yenilik axtarışında, mübarizədə, qurub-yaratmaqda olan insan elə kainatın da məhvinə səbəb olur. Müəllifin əsas ideyası da müharibələrə, insan faciəsinə qarşı çıxmaq, kamil, mükəmməl insan obrazı təqdim etməkdir. Kamalın ideal qəhrəman səviyyəsində təqdimi buna sübutdur.

Aləmzər Sadiqqızının "Günahkar adam" [7] hekayəsində müharibə, göz yaşı, şəhid, erməni vəhşiliyi, ana naləsi, oğul itkisi və digər mənəvi-psixoloji motivlər müəllif təhkiyəsində ibrətamiz detalları ilə canlandırılır. Müəllif narahat, həyəcanlı ana obrazını əsərin mərkəzinə gətirməklə ənənəvi tendensiyanı davam etdirsə də, yazıçı təhkiyəsində bir qədər konkretliyin şahidi oluruq. Əsas əhvalatdan əlavə təsvirlərə o qədər də yer verilmir. Gərginlik ("Bütün əsəbləri gərilmişdi. Özünü ələ ala bilmir, heç cür hansı işə və haradan başlayacağını tapa bilmirdi."), peşimanlıq duyğusu ("3 gün idi ki, bacısının yaşlı gözləri, məzəmmət edici baxışları gözləri önündən getmirdi"), sarsıntıdan ağaran saçlar ("Solmaz qardaşından aralananda necə oldusa gözləri onun saçlarına sataşdı. On gün bundan əvvəl qardaşının saçları qapqara idi. İndi ona ağsaçlı Arif baxırdı.") "günahkar adam"ı realizə edən ideya-məzmun xətti idi.

Aqil Hacıyevin "Dəhliz" hekayəsi də müharibə mövzsuna həsr olunmuşdur. Hekayədə danışılan əhvalat əsasında cəbhə bölgəsində hərbi əməliyyatın şahidi oluruq. Təsadüf nəticəsində sağ qalan Qarabağ əlili öz taqım komandirinin qəbrini ziyarət edərkən bir jurnalistlə (o da tez-tez şəhidlərin məzarını ziyarət etməyə gəlir) rastlaşır. Hadisəni danışan otuz-otuz beş yaşlı Qarabağ əlilinin söhbətindən məlum olur ki, Ağdamın Qərvənd kəndi istiqamətində aparılan hücum zamanı kəşfiyyatçılar satqınlıq nəticəsində tələyə düşürlər. Bütöv bir taqım komandirlə birlikdə həlak olur. Müəllif Qarabağ əlilini təqdim edərkən heç bir mübaliğəyə yer vermir, döyüş epizodlarını olduğu kimi danışmaqla hekayədə sənədlilik effekti yaradır: " – Bizim batalyon Ağdamın Qərvənd kəndi istiqamətində hücuma hazırlaşırdı. Bizim taqım düşmənin sol cinahına keçib hücum başlanan anda qəfil həmlə ilə düşmənin gözləmədiyi tərəfdən zərbə endirməli idi. Ermənilər bu hissədən təhlükə gözlə-

mədiklərindən buranı diqqətsiz qoymuşdular. Kəşfiyyatın verdiyi məlumata görə bu hissədə, kəndin bir az arxa tərəfində minaatan batareya yerləşmişdi. Biz həmin batareyanı sıradan çıxarmalı idik. Bundan sonra bizim bölüyün qalan iki taqımı da artıq bizim tağım tərəfindən açılmış yolla həmin hissəyə gəlməli idi. Nəticədə kənddə yerləşmiş düşmən batalyonu mühasirəyə düşürdü" [8, s. 135-136].

Əsərdəki sənədlilik müəllifin fərdi üslubunun özünəməxsusluğunu müəyyən etmişdir.

Qarabağ dərdini mənəvi-psixoloji aspektdə təsvir edən Qərib Mehdi "Ah, torpaq...torpaq..." hekayəsində torpağına sahib çıxmağı bacaran qəhrəman tipi yaratmışdır. Müəllifin qəhrəmanı çətinlikdən qorxmayan, ruhən və mənən torpaq uğrunda mübarizə aparan, sözün həqiqi mənasında vətənpərvər bir obrazdır. Hekayədə əks qütbdə dayanan ata və oğulla qarşılaşırıq. Ata – Tahir tarix müəllimi, oğul – Orxan isə qeyri – hökumət təşkilatı olan "Əlaqə" nin üzvüdür. Ata torpaqların müharibə yolu ilə qaytarılmasının tərəfdarıdırsa, oğul isə həll yolunu danışıqlarda, xalq diplomatiyasında görür. Orxan ata – anasının fikirləriylə heç cür razılaşmır "Əgər dil tapa bilmiriksə, mən vida dəsmalını yellədə bilərəm" deməklə ananı təşvişə salır. Ananın "Fikrin nədir? Gor evinə qonşuların çiynindəmi getməliyik? Atan cənnətə döndərdiyi bu bağı canından çox istəyir. Onu kimə etibar, əmanət edək ki, o dünyada rahat yata bilək?" sözləri ilə müəllif qəhrəmanını mənəvi-əxlaqi dəyərlərə arxa durmağa, onu qorumağa səsləyir. Oğlunun diplomat kimi Ermənistana gedib-gəlməyi Tahir müəllimi çox narahat edir. Orxanın Ermənistandan qayıdanda Karen Ovenasyan adlı ermənini özüylə gətirməsi ilə hadisələrin dinamikası dəyişir və kulminasiya nöqtəsinə çatır. Tahir müəllim "Allah qonağı" deyib oğlunun xətrinə özünə toxtaqlıq versə də, "milli xəstə" – Karen Ovenasyanın hərəkətləri onu düşünməyə vadar edir: "Çox gecikmişik. Tariximizi yazmağı, rəqib hədəfi nişan almağı bunlara tapşıranda, özümüzdən üstün tutub süfrəmizin başında oturdanda bağışlanmaz səhvlərə yol vermişik" [9, s 139]. "Qonağ"ın əsl üzü açıldıqca, düyün də çözülməyə başlayır. Karen Tahir müəllimin bağından gül dərmək bəhanəsiylə onun müqəddəs hesab elədiyi torpağını, gül-çiçəyini tapdalayır, bununla da gözü doymayıb öz çirkin niyyətini həyata keçirməyə fürsət tapır, müqəddəs torpağı çəkməqarışıq büküb aparmağa niyyətlənir. Tahir müəllim düşmənin xain niyyətini hiss edib, öz böyük sərvətini ustalıqla xilas edir.

"Artıq Günəş nəvazişli şəfəqlərilə bağ-bağçaları oxşayır, doğma torpaqları isindirirdi. Tahir müəllim hamıdan tez oyanıb aşağı düşmüşdü. O, qonağın oğru maşınına yaxınlaşdı. Əlini irəli verib yüklüyün qapısını açdı. Oradan selofana bükülmüş çəkmələri çıxartdı. Bükülünü ehtiyatla açdı. Özü yerə başqa bir sellofan sərib çəkmələri onun üstünə qoydu. Sanki arxeoloq işləyirdi. O, diqqətlə, səliqə ilə mərhəm torpağını yad çəkmələrindən təmizləməyə başladı. Qəlbi qeyri-adi bir sevinclə döyünürdü.Vəziyyət onu danışdırırdı:

- Hələ sən bunun azğınlığına bir bax!.. Burdan Ermənistan anası Quş xanıma torpaq hədiyyəsi aparmaq niyyətindədir. Özü də əllərində yox, tapdaq ayaqlarında. Ay sən öləsən, apardın ha!.. Mən bu bir ovuc doğma torpağı qarətçidən xilas elədim. Vəsiyyət edəcəyəm ki, dünyamı dəyişəndə onu gözlərimə töksünlər" [9, s. 141]. Müəllif Tahir müəllimin simasında vətəninə, torpağına bağlı bir obraz yaratmaqla gələcək nəsillərə mesaj ötürür, onları kodlamağı bacarır.

Vaxtilə məktəbdə uşaqlara hərbi-idman fənnini tədris etmək üçün milli kadrları geri itələyib arvadı Haykanuşa görə Karen kimi alçaqlara üstünlük verən, nəfsinə qalib gələ bilməyən məktəb direktoru müəllifin dili ilə tənqid hədəfinə çevrilir: "İnsan düşməndən əvvəl öz zəif cəhətinə qalib gəlməlidir. Yoxsa, düşmən bundan ustalıqla yararlanacaqdır." Müəllif Ovanesyanı öz sözləri ilə ifşa edir, əsrlərdir qonşu dövlətlərdən torpaq oğurlamağa çalışan karenkimilərin niyyətinin dəyişmədiyini, daha da quduzlaşdığını göstərməklə əsas ideyanı çatdırmağa çalışır. "Allah müsəlmanlara altı zəngin, üstü bərəkətli torpaqlar verib. Zaman bu ədalətsizliyi düzəltməlidir. Erməni xalqına sənin bağın kimi milyon hektarlarla münbit torpaqlar lazımdır. Misqal-misqal da olsa, biz arzumuzu reallaşdıracağıq. Bəli, bu gün türklərlə savaşdayıq, sabah başqa millətlərin torpaqlarına üz tutacağıq. Əllərimiz, ayaqlarımız dənizdən-dənizə çatana kimi biz sakitləşməyəcəyik. Bunu kilsəmiz və siyasi liderlərimiz bir vəzifə olaraq qarşımıza qoyub" [9, s. 138].

## YEKUN NƏTİCƏ

Bədii nəsrdə Qarabağ mövzusuna müraciət hekayələrdə kifayət qədər rast gəlinir. Bu mövzuda yazılan hekayələrin əksəriyyəti real hadisələri təsvirə meylli olduğundan realist nəsrin tələblərinə müəyyən qədər cavab verir. Məqalədə haqqında bəhs etdiyimiz hekayələrdə də müharibənin realist elementlərlə təsvirinə üstünlük verilmişdir. Ona görə həmin hekayələri realizmin prinsiplərinə cavab verən nəsr nümunələri kimi ümumiləşdirə bilərik.

## MİNNƏTDARLIQ

"Qarabağ mövzusunun realist hekayələrdə inikası" adlı məqaləmin ərsəyə gəlməsində elmi rəhbərim AMEA-nın müxbir üzvü, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri Tehran Əlişan oğlu Mustafayevə məqaləmin redaktəsində göstərdiyi köməyə və verdiyi tövsiyyələrə görə minnətdaram.

## ƏDƏBİYYAT

1. Abdulla, A. Qımır // "Azərbaycan" jurnalı, - 2001.
2. Mehrəliyev, E. Azərbaycan Ədəbiyyatında Qarabağ mövzusu / E.Mehrəliyev. – Bakı: Nurlan, - 2008. - 323 s.
3. Şərifova, S. Əriyən şam / S.Şərifova. – Bakı: Elm və təhsil, - 2011. – 123 s.
4. Əlioğlu, N. Əl saxla // "Azərbaycan" jurnalı, - 2000.
5. Məmmədova (Bərdəli), B. Evlərinin dalı təpə // "Azərbaycan" jurnalı, - 2002.
6. Tağıbəyli, V. Dağlarda qalan məzar // "Azərbaycan" jurnalı, - 2002.
7. Sadiqqızı, A. Günahkar adam // "Azərbaycan" jurnalı, - 2002.
8. Hacıyev, A. Dəhliz // "Azərbaycan" jurnalı, - 2004.
9. Mehdi, Q. Ah, torpaq...torpaq // "Azərbaycan" jurnalı, - 2007. №8, - s. 139.

## ANALYSIS OF THE KARABAKH ISSUE IN REALISTIC STORIES

**H.Y. Salifova**

The presented article mentions the history of Karabakh, the events that took place there, the names of the works that illuminate the tragedies that the Azerbaijani people have suffered historically, the moral and ideological impact of the indifferent attitude to the Karabakh conflict during the years of Soviet rule is condemned, after Azerbaijan gained independence, the importance of Karabakh issue and the concept of Azerbaijanism becoming a leading direction is emphasized.

At the same time, a special place is given to the analysis of the stories written about the first Karabakh war in the 2000s - the period of relative stability. "Gymyr" by Azer Abdulla, "Permitted blood" by Alabbas, "Melting candle" by Salida Sharifova, "Hold your hand" by Nizami Alioglu, "The branch of their houses" by Bahar Bardali, "The grave left in the mountains" by Vusal Taghibayli, "The guilty man" by Alamzar Sadiggyzi, Agil Hajiyev's "Corridor" and Garib Mehdi's "Ah, land...land" stories are interpreted in terms of subject and content. The reflection of the bitter traces of the Karabakh war on the mental state of the heroes, a dynamic attitude to what is happening, penetrating into the deep layers of reality, determines the main dramatic line of the stories. The aesthetic diversity imparted by prosaic thinking to the spontaneity of development is manifested in the text of the stories.

**Key words:** *prose, realistic story, Karabakh topic, war*

## АНАЛИЗ КАРАБАХСКОЙ ПРОБЛЕМЫ В РЕАЛИСТИЧЕСКИХ РАССКАЗАХ

**Х.Ю. Салифова**

В представленной статье упоминается история Карабаха, происходившие там события, названия произведений, проливающих свет на исторические трагедии азербайджанского народа, осуждается моральный и идеологический удар по нашей истории, нанесенный равнодушным отношением к карабахскому конфликту, в годы советской власти, а также подчеркивается важность трансформации карабахской темы и концепции азербайджанизма в ведущее направление после обретения Азербайджаном независимости.

При этом особое место отводится анализу рассказов, написанных о первой карабахской войне 2000-х годов - периода относительной стабильности. «Гымыр» Азера Абдуллы, «Кровь Халяль» Алаббаса, «Тающая свеча» Салиды Шарифовой, «Держи руку» Низами Алиоглу, «Ветка их домов» Бахара Бардали, «Могила, оставленная в горах» Вусала Тагибейли, «Виновный» Аламзара Садыкгызы, рассказы «Коридор» Агиля Гаджиева и «Ах, земля… земля» Гариба Мехди интерпретируются как по сюжету, так и по содержанию. Отражение горьких следов Карабахской войны на душевном состоянии героев, динамичное отношение к происходящему, проникающее в глубокие слои действительности, определяет основную драматургическую линию повестей. Эстетическое разнообразие, придаваемое прозаическим мышлением спонтанности развития, проявляется в тексте рассказов.

**Ключевые слова:** *проза, реалистический рассказ, карабахская тема, война*